

# Bəşəriyyət qadınlara ehtiramla yüksəlir

***Qadın hamımıza anadır, bacıdır, xaladır, bibidir. Analıq qadının həyatda ən uca məqamıdır. Buna görə də Ana adı dünyada insan üçün hər şeydən qiymətli olan Vətənlə qoşa tutulur, hər ikisi müqəddəs sayılır. Analar ulu baba-nənəmiz Adəmdən-Həvvadan üzü bəri həyatın ağır yükünü çəkiblər, buna görə də seviliblər, hamıdan üstün tutulublar.***

Lakin qadının həyatımızdakı bu əzəli, ali statusu zaman-zaman pozulub. Bəşəriyyət sivil dəyərlər, uca məramlar ətrafında toparlandıqca, ilkin olaraq, qadınların cəmiyyətdəki təbii-tarixi rolunun dirçəldilməsini aktuallaşdırıb. Təsadüfi deyildi ki, böyük Hüseyn Cavid deyirdi: "Sürüklənən bəşəriyyət qadınla yüksələcək!" Bu humanist missiyanı kütləviləşdirmək üçün sosial anlayışların yüksəliş dövrü olan XX əsrin əvvəllərində qadınların şərəfinə təqvimdə ayrıca gün təsis olunub.

Ümumiyyətlə, bayramlar həyatımızdakı uca dəyərləri hamılıqla, özü də təntənə ilə qeyd etmək ehtiyacından yaranıb. Hər bir xalqın mənəvi həyatında belə günlər az deyil. Dünya xalqlarının birlikdə bayram etdiyi günlər isə vur-tut bir neçədir. Onlardan biri də dünyanın hər yerində məhz qadınların adına qeyd edilən Beynəlxalq Qadınlar Günüdür.

Tarixən, ailədə və cəmiyyətdə qadına böyük hörmət bəsləyən Azərbaycan xalqı da dünyada öncüllər sırasında 8 Mart Beynəlxalq Qadınlar Gününü böyük sayğı ilə qeyd etməyə başlayıb. Artıq bir əsrdən çoxdur ki, ölkəmizdə qadınlar günü ehtiramla qeyd olunur. 8 Mart bayramının məram və məzmunu zaman keçdikcə, ictimai quruluş dəyişdikcə, Vətənimizdə daha dərindən başa düşülüb, qiymətləndirilib. Ümummilli dəyərləri həmişə ucalıqlara qaldıran, qadınların ictimai həyatda rolunu daim yüksəldən ulu öndər Heydər Əliyevin 8 Mart Beynəlxalq Qadınlar Gününü "bizim bütün bayramlar içərisində ən gözəli" adlandırması heç də təsadüfi deyildi.

Yaxşı deyiblər ki, insanı dünyaya analar gətirdiyi kimi, onunla bağlı ən ülvi arzular da ana ürəyində yuva qurur. İnsanlıq isə bu gözəl diləklərin pərvazlanmasına yaradılan imkan və şəraitlə yüksəlir. Analarımızın ötən zamanlarda ən böyük arzularından biri yurdumuzun müstəqillik əldə etməsi idi. Bu tarixi diləyin gerçəkləşməsi analarımıza indiki nəsillərin ən böyük töhfəsidir. Qadınlar həm də dünyamızı dinc, ehtiyacsız, firavan görmək istəyirlər. Bu yöndə də müstəqillik illərində ölkəmizdə əsrlərə bərabər irəliləyiş olub.

Bayramlar bizə gerçəkləşən istəklərimizdən yaranan xoş duyğular yaşatdığı kimi, yeni arzularımıza da qanad taxır. Bu, ən gözəl bayram günündə mən qadınlarımıza olan borcumuzu layiqincə qaytarmağın vacibliyini bir daha hamıya xatırlatmaq istəyirəm. Yada salmaq istəyirəm ki, qadının incidildiyi, aşağılandığı cəmiyyətlər və toplumlar həmişə lənətə düçar olub. Xoş diləkli, ağzı dualı, qədəmləri rüzi-bərəkətli analarımız ən yüksək diqqət və qayğıya layiqdirlər. Şükürlər olsun ki, çağdaş cəmiyyətimiz bu zərurəti kifayət qədər anlayır və gerçəkləşdirməyə çalışır.

Mən analarımıza bu günlərdə sevgilərimizin timsalı olaraq bağışladığımız bahar müjdəli, min bir ətirli güllər kimi təravətli, gözəl günlər arzulayıram. Azərbaycan qadınlarını bütün dünyanın sonsuz sayğı ilə qeyd etdiyi 8 Mart Beynəlxalq Qadınlar Bayramı münasibətilə təbrik etməkdən böyük məmnunluq duyuram. Qoy qadınlarımızın hər qayğısını çəkdikləri həyatımız dincliyə, səadətə və bolluğa bürünsün!

***Çingiz ABDULLAYEV,***
***Azərbaycan Yazıçılar Birliyinin katibi,***
***Xalq yazıçısı***